# Qərib Qərbi Azərbaycan

**Qərbi Azərbaycan haqda ilk dəfə İnşallah babamdan eşitmişdim. Onda, 1979-cu ildə 5-ci sinifdə oxuyurdum... Babam hər il İrəvana – çox hörmət bəslədiyi Göyçədəki dostu ilə görüşə gedərdi...**

Sonralar soruşub bildim ki, İkinci Dünya savaşında Hitler Almaniyasına əsir düşərək bir düşərgədə olublar. Babam Məhəmmədəmin Rəsulzadənin Almaniyaya təsiri nəticəsində dini təhsilinə, müsəlman olduğuna görə əsir düşərgəsinin dini rəhbəri seçilib və bütün müsəlmanları başına yığıb (özü belə deyərdi). Nəinki müsəlmanları, 2 nəfər yəhudini də bizim Qubanın indiki Qırmızı qəsəbəsindən müsəlman adı ilə öz himayəsinə götürübmüş. Faşist dediyimiz ünsürlər, yəhudi cəlladı Hitler hakimiyyəti müsəlmandırlar deyə onlara toxunmayıb və özlərini idarə etmək üçün şərait yaradıbmış. Babamın söylədiyinə görə, sovet hökuməti də əsirlikdən sağ qayıtdıqlarından onları təqib etmirdi.

Göyçəli Mayıl baba isə dini təhsilinə görə əsir düşərgəsində babamın ən yaxın sirdaşı olmuşdu. İllər keçdikcə babama xatirələrini dilləndirmək üçün suallar verərdim. Heç yadımdan çıxmaz, kimsənin adını çəkməzdi. Mən də təkidlə məsələnin mahiyyətinə varmaq məqsədilə ardıcıl suallar verərdim. Sonralar babamın nədən o adamların adlarını çəkmədiyini anladım. Kommunistlərin qınağına tuş gəlmələrindən, KQB tərəfindən sorğu-suala tutulmalarından çəkinirmiş. Amma zor-güc, babamın ilk oğul nəvəsi olmaq “imtiyazımdan” yararlanıb Göyçəli Mayıl baba haqqında da öyrənə bilmişdim. Onda babam hər şeyi təfərrüatı ilə danışmışdı. Demişdi ki, “Bala, mən İrəvana, Göyçə tərəfə gedirəm,orda bir dostum var, onu da götürüb “Əshabi-Kəhf” ziyarətgahına yollanırıq. O da bizim Naxçıvanda yerləşir. Həmin müqəddəs yerin adı Qurani-Kərimdə keçir, bala, ona görə ora gedirik”.

....Əvvəllər bu deyilənlər haqda heç bir təsəvvürüm yox idi. İllər ötdü, babamın keçdiyi o yollarda Birinci Qarabağ savaşında ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə iştirak etməli oldum. Onların Zəngəzurdan Naxçıvana keçdiyi ərazinin işğal olunduğunun da, getdikləri o yolun bağlanmasının da şahidi oldum. Babamın xatirələri, dostu Mayıl baba ilə Naxçıvana, Əshabi-Kəhf ziyarətinə getdiyi günlərin xatirələri də kino lenti kimi gözümün önündən keçirdi, 1993-cü ildə Cəbrayıl, Zəngilan işğal olunanda. O yerlərdə artıq nə Mayıl baba var idi, nə də onun oğulları, nəvələri. Mənə Azərbaycanımızın Qarabağ adlı bir parçasının işğalı haqda ilk təəssüf və kədər gətirən məqamlar da daha çox babamın o xatirələrindən qaynaqlanırdı. Babam həyatda yox idi, amma onun Göyçəli dostu Mayılı istəmişdim o vaxtlar. Əslində onun da həyatda qalıb-qalmadığından, o yerlərdən didərgin düşüb-düşmədiyindən xəbərim yox idi. Heç olmasa, o nəsildən kimləsə görüşmək, keçmiş xatirələri canlandlrmaq niyyətindəydim... Qədim yurd yerimiz İrəvandan və ətrafdakı mahallardan, eləcə də Göyçədən çoxdan qovulublar. Bunları düşünərkən öz ruhum da itirilmiş torpaqlarımızın həndəvərində “əsir” olurdu. Necə də olmasın? Axı, erməni qəsbkarları Zəngilanı, Cəbrayılı, Füzulini, Ağdamı, ard-arda neçə bölgəmizi işğal etmişdilər.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə arzuma çatacağıma ümidlərim çoxalmışdı. Amma başsızlıq, hakimiyyət çək-çeviri üzündən yaranan çətin vəziyyətdə o dahi siyasətçi də yalnız Füzulinin Horadiz qəsəbəsini və digər istiqamətlərdə müəyyən əraziləri işğaldan azad edə bildi... Bütün Azərbaycanın Qarabağa qayıdış arzusu və nəticədə mənim də Zəngilan istiqamətində Zəngəzurdan, babamın getdiyi yoldan keçmək arzum yarımçıq qaldı...

İllər ötdü və ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı, respublika Prezidenti İlham Əliyevin bir əmri ilə ordumuz o yerləri heç kimin ağlına gəlməyəcək qısa bir vaxtda – 44 gündə erməni işğalından azad etdi.

Amma yağı düşmən təslim aktına imza atsa da, pozucu siyasətindən əl çəkmir. Hələlik babamın Göyçəli Mayıl baba ilə keçdiyi o yoldan ötüb Naxçıvana, Əshabi-Kəhfə gedə bilmirəm. Amma əminəm ki, tarixin izləri heç vaxt itmir. O izlər daşlaşmış, qayalaşmış yurd yerlərimizdə yaşayır...

Zəngilandan Naxçıvana uzanan bir yol var. Orda Zəngilanda, Zəngəzurda bir ev var. O ev bizim evimizdir, o yol bizim yolumuzdur! İnanıram ki, tarixi yurdumuz Zəngəzurdan keçərək müstəqil Azərbaycan illərlə blokadada qalan Naxçıvana uzanan o yolu bərpa edəcək. Çünki o yol bizim haqqımızdır! O ev bizim evimizdir!

**Rahib QƏRİB,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 6 yanvar.- S.8.